Azadlıq Radiosu

DÜNYA XƏBƏRLƏRİ

# NATO hərbçilərinin Rumıniya üzərində Rusiya dronu vurduğu bildirilir

indicə




Şahed dronu

Avqustun 16-na keçən gecə NATO-nun F-18 qırıcısı Rumıniyanın hava məkanını pozan naməlum dronu vurub. Məlumatı ölkənin Milli Müdafiə Nazirliyi yayıb.

Bundan əvvəl dron Moldova üzərindən uçub. Moldova Müdafiə Nazirliyinin məlumatına görə, dron səhər saat 4:31 radələrində Ukraynanın Odessa vilayəti tərəfdən ölkənin hava məkanına daxil olub, bir neçə yaşayış məntəqəsinin üzərindən keçib və 20 dəqiqə sonra Rumıniyanın hava məkanına keçib. Qurum dronun Rusiya ordusunun Ukraynaya hücumunda iştirak etdiyini bildirir.

Rumıniya Müdafiə Nazirliyi isə bildirib ki, Qalats şəhərindən təxminən 24 kilometr şimalda hava obyekti Moldovanın hava məkanına daxil olub: "Kəşfiyyat missiyası

çərçivəsində [İspaniya hərbçilərinin qırıcısı] hədəflə radar əlaqəsi qurulub, atəş açmaq üçün icazə alıb”.

Vurulan dronun qalıqlarınln Kudalbi və Beleni yaşayış məntəqələri arasındakı yaşayış olmayan əraziyə düşdüyü bildirilir.

Rumıniyanın Qalats şəhəri ölkənin şərqində, Moldova və Ukrayna sərhədlərinin yaxınlığında yerləşir.

“Reuters” NATO təmsilçisi **Martin O'Donnell**ə istinadla yazır ki, hərbçilər hadisənin başvermə şəraitini araşdırırlar. Onun sözlərinə görə, dronun Rusiyaya məxsus olduğu ehtimal edilir.

İlin əvvəlindən bəri artıq dördüncü dəfədir oxşar hadisə baş verir. NATO qırıcıları iyuldan bəri Ukrayna tərəfdən Rumıniya ərazisinə daxil olan dronları vurmağa başlayıblar. Rumıniya hakimiyyəti bunların Rusiya dronları olduğunu bildirir.

Bu ilin mayında Rumıniya prezidenti **Nikuşor Dan** Rusiyanın Konstantsadakı baş konsulu **Andrey Kosilin**i persona non qrata elan edib, şəhərdəki Rusiya Baş Konsulluğunun bağlanacağını açıqlayıb. Bundan əvvəl Rusiya dronu Qalatsda yaşayış binasının damına çırpılmışdı. O zaman dronun vurulmamasına görə hakimiyyət tənqid olunmuşdu.

İyulda Rusiya dronu ölkənin hava məkanına növbəti dəfə girincə Rumıniya hakimiyyəti rusiyalı diplomatı ölkədən çıxarıb.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur